# COP29-un tərəfdaşı "Giltex" MMC

## Şirkət "yaşıl zona"da "tarladan köynəyə qədər" tətbiq etdiyi prosesi sərgiləyir

Artıq ikinci həftədir davam edən COP29-da Azərbaycanın ən böyük pambıq və tekstil istehsalçısı olan "Giltex" MMC-nin "yaşıl zona"dakı pavilyonu yerli və əcnəbi qonaqların diqqət mərkəzindədir. Pavilyonda kənd təsərrüfatına aid məhsullardan nümunələr sərgilənir. Eyni zamanda Azərbaycanın yüngül sənayesi ilə maraqlananlar da burada istədikləri məlumatı əldə edə bilirlər.



Biz də şirkətin nümayəndələrinə müraciət etdik. Öyrəndik ki, "Giltex" pambığın becərilməsindən və yığılmasından tutmuş, emalı və geniş çeşidli geyim məhsullarının istehsalına qədər bütün tədarük zəncirini əhatə edir. MMC "GP Cotton Holding"in tərkibinə daxildir. 5000 nəfərdən çox işçisi olan holdinq tərkibindəki "Giltex" və "Prime Cotton" şirkətləri vasitəsilə 10 mindən çox fermer və aqronomla da yaxından əməkdaşlıq edir. Həmin iki şirkət isə "tarladan köynəyə" qədər prinsipi ilə işləyir. Üstəlik, keyfiyyəti də nəzarətdə saxlayır. Bu isə "GP Cotton Holding"ə dünya miqyasında müştərilərinə yüksəkkeyfiyyətli məhsullar təqdim etməyə imkan verir.

Yeri gəlmişkən, qeyd edək ki, "Giltex" MMC müxtəlif növ və rəngdə parça, həmçinin köynək, dəsmal, uniforma və yataq dəsti kimi hazır tekstil məhsullarının istehsalında ixtisaslaşıb. Şirkət 2012-ci ildə təsis edilib və Cənubi Qafqaz regionunun aparıcı tekstil istehsalçılarından biridir. Şirkətin istehsal sahələrinə iplik, iki toxuculuq, iki boya, geyim və tibbi maska fabrikləri daxildir. "Giltrex" ildə 18 milyon metr xam və boyalı parça, 1800 ton trikotaj, 1000 ton dəsmal, 1500 ton toxunma məhsulları, 250 min ədəd uniforma və 1 milyon yataq dəsti istehsal edə bilir. Şirkət Belçika, Almaniya, Yaponiya və Türkiyə istehsalı olan müasir avadanlıqlarla təchiz edilib.

MMC COP29-da ekoloji məhsullar təqdim etməklə yanaşı, ekologiyanın qorunmasına da öz töhfəsini verir. Hələ bir neçə ay əvvəl "Giltex" COP29-un rəsmi tekstil tərəfdaşı olduğunu elan etmişdir. Şirkətin baş direktoru Kamran Ağası həmin əməkdaşlıqla qlobal iqlim səylərini dəstəkləmək öhdəliyini vurğuladığını deyir: "Bu tərəfdaşlıq bizim davamlılıq və əməkdaşlıq üzrə öhdəliyimizi bir daha təsdiqləyir. COP29 bizə karbon emissiyalarını azaltmaq və sənayemizdə iqlim fəaliyyətini irəlilətmək istiqamətində strateji ittifaqlar qurmaq üçün unikal bir imkan təqdim edir".

Şirkət ötən bir neçə gündə "yaşıl zona"da ekoloji məhsul çeşidləri sərgiləməklə yanaşı, davamlılıq haqqında qlobal liderlərlə fəal şəkildə əməkdaşlıq etmək imkanı da qazanıb. "Giltex" təmsilçisinin dediyinə görə, şirkət bu platformadan ekologiyanın qorunması ilə əlaqədar təcrübələrin paylaşılmasına töhfə vermək və əməkdaşlıq qurmaq üçün istifadə edəcək. Öyrəndik ki, "Giltex"in davamlılıq strategiyası onun karbon izini minimuma endirməyə, enerji səmərəliyini yüksəltməyə və bərpaolunan enerjidən istifadəsini artırmağa yönəlib. Bununla əlaqədar hazırda 19 əsas məhsul üzrə karbon emissiya mənbələrini müəyyən edərək əməliyyatlar təkmilləşdirilir.

Qeyd edək ki, şirkət indiyə kimi bu və digər sahələr üzrə COP29 çərçivəsində müxtəlif tədbirlər həyata keçirib. "Giltex"in bu qəbildən olan növbəti tədbiri Azərbaycan pavilyonunun "mavi zona"sında baş tutub. "Suyun səmərəli istifadəsi" adlanan tədbirdə iqlim dəyişikliyinə qarşı mübarizədə və kənd təsərrüfatı məhsuldarlığının artırılmasında dayanıqlı su idarəetmə üsullarının əhəmiyyəti barədə danışılıb. Baş icraçı direktor Kamran Ağası şirkətin strategiyasında dayanıqlılığın rolu ilə bağlı fikirlərini iştirakçılarla paylaşıb: "Giltex"də dayanıqlılıq sadəcə bir məqsəd deyil, bizim strategiyamızın əsas dayağıdır. Biz tekstil istehsalında suyun təkrar istifadəsinə imkan verən yeni texnologiyaların tətbiqini planlayırıq. Bu, ətraf mühitə təsirimizi azaltmaqla yanaşı, sənayemizdə bir standart yaratmağımıza da xidmət edəcək. Belə tədbirlər yeniliklərin təşviqində və əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayır, daha dayanıqlı bir gələcəyə yol açır".

Tədbirdə "GP Cotton Holding"in sədri Con Yanq Simpson, "Emerging AG" şirkətinin prezidenti Robynne Anderson, "Rivulis"in direktoru Coşua Dikson və "Global Textile"nin baş direktoru Muzaffər Razakov çıxış ediblər. Con Yanq Simpson söyləyib ki, pambıq istehsalında daha az su istifadə etməyə və suvarma prosesini daha qısa müddətdə tamamlamağa imkan verən innovativ texnologiyaları tətbiq edirlər. Bu, yalnız məhsuldarlığı artırmır, həm də dəyişən dünyanın tələblərinə cavab verən dayanıqlı təcrübələrlə olan əlaqələri əks etdirir.

COP29 çərçivəsində keçirilən tədbirdə "Giltex" MMC müxtəlif sahələrin nümayəndələri üçün ideya və təcrübə mübadiləsi aparmaq istiqamətində qiymətli bir platforma təqdim edərək sudan səmərəli istifadə ilə bağlı qlobal səviyyədə əməkdaşlıq səylərinin təməlini qoyub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 20 noyabr (№ 255).- S.14.